# RƏNGKARLIQDA MƏNZƏRƏ JANRI

Təbiət rəngkarlıq sənətinin inkişafında müstəsna yer tutur. rəngkarlığın mənzərə janrı insanın estetik dünyasının, bədii zövqünü, ən zərif duyğularını ifadə edən mühüm janr sayılır.

Rəngkarlıq sənətində mənzərə janrının özünəməxsus mövqeyi və bədii funksiyası vardır. Mənzərə əsərlərində təbiətin təkrarsız və rəngarəng obrazları, füsunkar gözəlliyi, əzəməti, estetik xüsusiyyətləri təsvir və tərənnüm olunur. İnsanın varlığı təbiətdən, onun saf gözəlliklərindən ayrılmazdır. İnsan və təbiət əzəldən əkiz yaranmışdır. Təbiətin xoş, təravətli və cazibədar boyalarına, bol nemətlərinə laqeyd yanaşmaq qeyri-mümkündür.

Təbiət və Vətən sevgisi insanın ən müqəddəs hiss və duyğularını, arzu və istəklərini özündə birləşdirir. Təbiət, ana Vətən, doğma diyar bir-birinə olduqca yaxın, bir-birini tamamlayan anlayışlardır. Vətən torpağının suyu, havası, iqlimi, təbii sərvətləri, gözəllikləri insan həyatının əsasını təşkil edir. Vətən sevgisi ilə ana məhəbbəti əkiz yaranmışdır. Bizim üçün doğma Azərbaycan ana qoynu kimi əziz və müqəddəsdir. Bizim estetik idealımız xalqın mənəvi qüdrətini, varlığını, amalını ruhlandıran Azərbaycan torpağına, onun günəşli təbiətinə, saf ab-havasına bağlıdır. İnsanın halal zəhməti sayəsində laləzara dönmüş Vətən torpağı bizim fəxrimizdir.

Vətənin uca, vüqarlı dağları, yaşıl meşələri, yaylaqları, şır-şır axan çayları, durna gözlü bulaqları, şəlalələri, büllur göl və çeşmələri, mavi dəniz tənhalıqları, çöllərində, yamaclarında bitən ətirli çiçəkləri, meyvələri, rəssamlar üçün yaradıcılıq mənbəyidir. Başı qarlı dağlar, uca zirvələr, insanın ucaltdığı qala və istehkamlar, möhtəşəm saraylar, imarətlər qüdrət və əyilməzlik rəmzidir.

Azərbaycan xalq yaradıcılığında, milli folklor və poeziya nümunələrində təbiət dönə-dönə tərənnüm olunmuşdur. "Dağ yeri, duman yeri, yurd yeri, çəmən yeri" kimi müdrik aforizmlər xalqın dilində əzbərdir. Müdriklərimizin dili ilə desək "günəşsiz keçinmək olmaz, məhəbbətsiz – yaşamaq". Qədim Qobustan, Şahdağı, Kəpəz, Göy-göl, Heydərbaba, günəşli Abşeron, gah sakit və mülayim, gah da dalğalı-tufanlı Xəzər, möhtəşəm və əzəmətli Qız qalası, sərin və təravətli Şuşa, vüqarlı zirvələri göylərə yüksələn, bağlı-bağatlı Naxçıvan, dadlı və meyxoş meyvələr diyarı Quba, hərarətli Lənkəran-təbiətin müxtəlif iqlimləri ilə zəngin günəşli Azərbaycan torpağı daim sənətkarın duyğularına, şairanə təxəyyülünə qida verir.

Böyük Azərbaycan şairi Şəhriyarın təbiətə həssas münasibətini göstərən müdrik sözləri nə qədər mənalıdır:

"Dağlar təbiətin ən qabarıq şah əsəridir. Dağın döşündən, qayaların qəlbindən çağlayan göz yaşı kimi saf və təmiz sular yaradıcı insanın iş qabiliyyəti qədər böyük və təmizdir. Heydərbaba isə dağdır". Böyük mənzərəçi Səttar, digər şairlər, rəssamlar belə dağların vurğunudur.

Azərbaycanın istedadlı rəssamları özlərinin ən sevimli əsərlərini doğma təbiətin gözəlliklərinə həsr edirlər. Təbiətin gözəllikləri Azərbaycan xalqının klassik sənətində - orta əsrlərin zərif miniatürlərində, Şəki Xan Sarayının monumental divar rəsmlərində, Xan qızı Natəvanın incə lövhələrində, Mir Möhsün Nəvvabın naxışlarında əksini tapmışdır.

XX əsrdə Azərbaycan rəngkarlığının formalaşmasında ilk peşəkar fırça ustası Bəhruz Kəngərlinin Naxçıvan təbiətinə həsr etdiyi lirik və şairanə mənzərələri diqqəti cəlb edir. Kəngərli doğma diyarın günəşli təbiətini, gen düzlərini, uca dağlarını, havanın nəfəsini, boyalarını canlandıran silsilə mənzərələr yaratmışdır. O, təbiətdə baş verən müxtəlif rəng uyarlığını ifadə edən



***Təbiətin gözəlliyi və əzəməti sənət xadimlərini - şairləri, bəstəkarları, rəssamları daim düşündürən, ruhlandıran ən mühüm və tükənməz ilham mənbəyidir. Çünki insanın varlığı, taleyi, ən xoş arzuları və əməlləri onu əhatə edən təbiətin, ətraf mühitin xoş nəfəsi, hərarəti, gözəlliyi və ahəngdar boyaları ilə ayrılmaz şəkildə bağlıdır.***

impressionizm cərəyanına meyl göstərmişdir.

Azərbaycan dəzgah rəngkarlığında, mənzərə janrının inkişafında yaşlı nəslə mənsub sənətkarlardan M.Abdullayev, B.Mirzəzadə, T.Tağıyev, S.Bəhlulzadə, M.Rəhmanzadə kimi rəssamlar əvəzsiz rol oynamışlar. Lakin bununla belə, bizim mənzərə rəngkarlığımızın ağsaqqalı Səttar Bəhlulzadə müasir mənzərə sənətinə əvəzsiz töhfə vermişdir.

Səttar Bəhlulzadə Azərbaycan təbiətinin şairanə tərənnümçüsüdür. O, Vətən torpağının təbiətinə misilsiz nəğmə qoşmuşdur. Əsərləri mövzu etibarilə müxtəlif və rəngarəng olmaqla, milli koloritinə, fərdi özünəməxsusluğuna görə tamaşaçıları valeh edir. O, Quba, Şuşa, Gəncə, Qarabağ, Abşeron təbiətinin günəşli boyalarını, doğma təbiətin sərvətlərini dönə-dönə tərənnüm etmiş, boyalarında sonsuz füsunkarlıq və təkrarsız şeriyyət tapmışdır. Çox maraqlıdır ki, Bəhlulzadə dünya mənzərə sənətinin, o cümlədən, impressionistlərin ənənələrindən faydalanaraq həmin ənənələrilə Azərbaycan sənətinin sintezinə nail olmuşdur. Məşhur "Kəpəzin göz yaşları" mənzərəsini xatırlamaq kifayətdir.

Azərbaycan mənzərə rəngkarlığı mövzusu və bədii üslub baxımından müxtəlif və rəngarəngdir. Bizim mənzərə rəngkarlığında sənaye və şəhər motivləri ilə yanaşı, sırf təbiət gözəllikləri geniş yer tutur.

M.Abdullayevin Mingəçevir mənzərələri, B.Mirzəzadənin Xəzər neft estakadalarına həsr etdiyi lövhələri, yaxud N.Qasımovun dəniz mənzərələri buna misal ola bilər. N.Əbdürrəhmanovun dağlar da, səfalı yaylaqlara həsr etdiyi lirik mənzərələri də şairanədir.

Azərbaycan mənzərə sənətində Tahir Salahovun sənaye mənzərələri, T.Nərimanbəyovun romantik tabloları xüsusi mərhələ təşkil edir. Onların əsərlərində milli kolorit və novator intonasiyalar həlledici rol oynayır.

Azərbaycan mənzərə rəngkarlığında üslub və fərdi maneralar rəngarəng və zəngindir. Əvvəllər mənzərələrdə həyatı real və canlı təsvir etmək meyli geniş yayılmışdır. Lakin tədricən bu sahədə yeni üslub axtarışları mühüm əhəmiyyət qazanır. Bu baxımdan R.Babayevin Abşeron təbiətinin əfsanəvi qüdrətini, gözəlliyini tərənnüm edən mənzərələri xüsusi şöhrət qazanmışdır.

Mübaliğəsiz demək olar ki, bizdə artıq Abşeron mənzərə məktəbi formalaşmışdır.

Abşeron torpağının təkrarsız koloritini ifadə etmək sahəsində Fərhad Xəlilovun əsərləri xüsusilə fərqlənir. Onun sərbəst, bəzən şərti və lakonik üslubda işlədiyi mənzərələrində Abşeronun təbiəti, çiçəklənən yaylaqları, baxçaları, qədimi evləri lirik duyğularla fırçaya alınmışdır. XX əsrin son rübündə Azərbaycan rəngkarlığında folklor, miniatür ənənələri ilə yanaşı bəzi modernist cərəyanlara meyli genişlənmiş, sənətdə yeni ifadə vasitələri naminə axtarışlar aparılmaqdadır. Rəngkarlıqda avanqard təmayülü ifadə edən C.Mircavadovun, T.Cavadovun, K.Əhmədin, F.Qulamovun və digər rəssamların əsərlərində milli ənənələrə, boya, forma və müasir təsvir vasitələrinə təsadüf olunur. Rəssamlarımızın axtarışlarını ifadə edən "Abşeron məktəbi" mənzərə janrının gələcək inkişafına yeni təkan verəcəkdir.

***Biz ümidvarıq ki, Azərbaycan mənzərə rəngkarlığı dünya rəngkarlığının klassik nümunələrindən, Avropanın P.Breygel, Pussen, Reysdal, Konstebl, Terner, K.Lorren, Koro, K.Mone, V.Qoq, Sezann, Rusiyanın İ.Şişkin, A.Savrasov, İ.Levitan, A.Kuinji, K.Korovin, İ.Qrabar, S.Gerasimov, P.Konçalovski və digər rəssamların ənənələrindən faydalanaraq milli sənətin şöhrətini yüksəyə qaldıran yeni əsərlər yaradacaqlar.***

*Çingiz Fərzəliyev*